**BAKI ŞƏHƏRİ NƏSİMİ RAYON MƏHKƏMƏSİNƏ**

**İddiaçı :** X.X.X.

Ünvan: ....................
Telefon nömrəsi: .............................
Email: ..............................
(MPM-nin 149.2.2-ci mad. iddiaçı barədə göstərilən məlumatlar)

**Cavabdeh:** Y.Y.Y.

Ünvan: ....................
Faktiki yaşadığı ünvan: .........................
Telefon nömrəsi: .............................
Email: ..............................
(MPM-nin 149.2.2-ci mad. cavabdeh barədə göstərilən məlumatlar)

**İddianın qiyməti** ______________________________
(məbləğ manatla, əgər iddia qiymətləndirilməlidirsə)

**İşçinin təqsiri üzündən işəgötürənə dəymiş maddi zərərin**

**əvəzinin ödənilməsi haqqında**

**İDDİA ƏRİZƏSİ**

"__"_______20_ci il tarixdən cavabdeh ____________*(işəgötürənin adı)*______vəzifəsində (peşəsində) işləyir(di) və __________ *(əmək funksiyasını, görülən işin xarakterini göstərmək)* işini görür(dü). Cavabdeh əmək münasibətləri prosesində əmək funksiyasının xarakteri ilə əlaqədar öz üzərinə tam maddi məsuliyyət götürmüşdü. Bununla bağlı cavabdehlə əmək münasibətləri prosesində əmək funksiyasının xarakteri ilə əlaqədar olaraq işçinin öz üzərinə tam maddi məsuliyyət götürməsi haqqında yazılı müqavilə bağlanmış ________sənədə imza atmışdır. Lakin cavabdeh _____________ilə nəzərdə tutulan vəzifələrini yerinə yetirmədiyinə görə İşəgötürənə ziyan dəymişdir. Belə ki, __________________*(işçinin hərəkət və yaxud hərəkətsizliyi barədə məlumatlar)*___________________. Ziyanın məhz cavabdehin _________qanunazidd hərəkətləri nəticəsində vurulmasını _______*(sübutlar)* ____________________________sübut edir.

Beləliklə, xidməti vəzifələrini yerinə yetirən zaman cavabdeh tərəfindən İşəgötürənə ___________*(işəgötürənin adı)* _____manat miqdarında maddi ziyan dəymişdir (hesabat əlavə olunur).

Azərbaycan Respublikası Əmək Məcəlləsinin 199-cu maddəsinə əsasən işçi işəgötürən qarşısında tam maddi məsuliyyəti aşağıdakı hallarda daşıyır: a) saxlanmaq və başqa məqsədlər üçün işçiyə verilmiş əmlakın və digər sərvətlərin salamatlığını təmin etməyə görə əmək müqaviləsi bağlanarkən, habelə əmək münasibətləri prosesində əmək funksiyasının xarakteri ilə əlaqədar olaraq işçinin öz üzərinə tam maddi məsuliyyət götürməsi haqqında işəgötürənlə yazılı müqavilə bağlandıqda; b) işçi əmlakı və digər sərvətləri birdəfəlik etibarnamə və ya digər birdəfəlik hüquqmüəyyənedici sənədlər əsasında işəgötürənə, yaxud onun nümayəndəsinə hesabat vermək şərti ilə qəbul etdikdə; c) inzibati xətalar, yaxud cinayət, habelə vergi qanunvericiliyi ilə cəza verilməsi nəzərdə tutulmuş hərəkət və ya hərəkətsizliyində ictimai təhlükəli əməllərin əlamətləri olduqda; ç) əmlakı və ya digər maddi sərvətləri qəsddən korladıqda, məhv

etdikdə, habelə işəgötürənə digər üsulla qəsddən ziyan vurduqda; d) alkoqol, toksik (zəhərli), psixotrop maddələrdən və ya narkotik vasitələrdən sərxoş vəziyyətdə ziyan vurduqda; e) işəgötürənin kommersiya sirrini yaydıqda; ə) işəgötürənin şəxsiyyətini ləkələyən, şərəf və ləyaqətini alçaldan, habelə həqiqətə uyğun olmayan böhtanlı və təhqirli iftiralar, yalan məlumatlar yaymaqla onun sahibkarlıq fəaliyyətinə ciddi xələl gətirmiş mənəvi ziyan vurduqda) səbəbdən ziyan vurulmuşdur.

Yuxarıda qeyd olunan məbləğdə________(*işəgötürənin adı*) maddi ziyanın vurulmasında cavabdehin təqsiri, həmçinin ziyanın vurulması ilə cavabdehin hərəkətləri (hərəkətsizliyi) arasında səbəbli əlaqənin mövcud olması________(*sübutları təqdim etmək)* sübutlarla təsdiq olunur.

Yuxarıda göstərilənlərə və Azərbaycan Respublikası Əmək Məcəlləsinin 191 və 199-cu maddələrinə əsasən,

**Xahiş edirəm:**

1. ____manat məbləğində maddi ziyan_________*(cavabdehin S.A.)* _______oğlundan/qızından_______________*(işəgötürənin adı)*___________xeyrinə tutulsun.

2. İddianın təmin tədbiri kimi üçün cavabdehin əmlakı üzərinə həbs qoyulsun.

**Qoşma:**

1. Cavabdehin işə qəbul olunması haqqında əmrin surəti (əmirdən çıxarış) _____vərəqə;
2. Əmək müqaviləsinin nüsxəsi;
3. Ziyanın vurulmasını təsdiq edən sübutlar ______vərəqə;
4. Ziyanın hesabatı ___vərəqə;
5. Ziyanın vurulması ilə cavabdehin hərəkətləri (hərəkətsizliyi) arasında səbəbli əlaqənin mövcud olmasını təsdiq edən sübutlar___vərəqə;
6. Dövlət rüsumunun ödənilməsini təsdiq edən sənətlər____vərəqə;
7. İddia ərizəsinin surəti.

İddiaçının imzası ___________________________

Tarix: “____”_________20__ci il